Sizlərdən biriniz ailəsinin yanına döndüyündə orada üç kök böyük hamilə dəvə görmək istəyərmi?

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Sizlərdən biriniz ailəsinin yanına döndüyündə orada üç kök böyük hamilə dəvə görmək istəyərmi?". Biz: "Bəli" dedik. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Sizlərdən birinizin namazda oxuduğu üç ayə, üç böyük, kök, hamilə dəvəyə sahib olmaqdan daha xeyirlidir" - deyə buyurdu.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, namazda üç ayə oxumağın savabı, insanın evindəki üç kök, böyük, hamilə dəvədən daha xeyirlidir.

http://sunnah.global/hadeeth/az/show/65053